**Su təchizatı və tullantı su şəbəkələrinə qoşulma ilə bağlı tələb olunan sənədlərin siyahısı:**

***Məişət abonentləri üçün tələb olunan sənədlər:***

- sifarişçinin adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin FİN kodu, telefon nömrəsi, poçt və elektron ünvanı;
- torpaq sahəsinin ünvanı;
- mülkiyyət və digər əşya hüquqlarına dair hüquqmüəyyənedici sənəd barədə məlumatlar.

**Qeyd:**

- Məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda sənədin surəti təqdim edilir.

***Qeyri-yaşayış təyinatlı tikinti obyektlərindən tələb olunan sənədlər:***

- sifarişçinin adı, hüquqi ünvanı və VÖEN-i, sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs olduqda adı, ünvanı və VÖEN-i;
- tikinti obyektinin yerləşdiyi yaxud yerləşəcəyi torpaq sahəsinin ünvanı;
- mülkiyyət və digər əşya hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestr və qeydiyyat nömrələri;
- suya olan tələbatı, axıdılacaq tullantı sularının həcmi;
- telefon nömrəsi, poçt və elektron poçt ünvanı.

**Qeyd:**

- Məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda sənədin surəti təqdim edilir.
- "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq, ərizə və əlavə olunmuş sənədlər qəbul edildikdən sonra dərhal elektron sistemə daxil edilir. *(https://e-qanun.az/framework/11254)*

Vətəndaşlar su və tullantı su təchizatına qoşulmaq üçün tələb olunan sənədlərlə ASAN kommunal", "ASAN xidmət" mərkəzlərinə, Elektron su (e-su.az), Elektron hökumət portallarına (e-gov.az) və Kiçik və orta biznes evlərinə (KOB evləri) müraciət edə bilərlər.